# “Qarabağa aparan yol”la 400-cü görüş

Qarabağa aparan yol

*Həftəlik ictimai-siyasi, publisistik müstəqil qəzet*

www.
qarabagaaparanyol.az

*Qəzet 2005-ci ilin sentyabr ayından nəşr olunur* ✻ № 40 (400) 14 dekabr 2018-ci il ✻ Qiyməti 40 qəpik

## Prezident və ailə üzvləri Heydər Əliyevin məzarını ziyarət etdilər



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

## Arzu edirəm ki, tezliklə bu yol bizi Qarabağa qovuşdursun



**Aydın QULİYEV,
“Bakı Xəbər” qəzetinin baş redaktoru,
Azərbaycan Mətbuat Şurasının İdarə heyətinin üzvü**

“Qarabağa aparan yol” qəzetinin 10 illik yubileyində demişdim ki, kaş bu qəzetin ömrü bu qədər uzun olmayaydı, torpaqlarımız işğaldan azad olunaydı və sizlər Qarabağdan Bakıya başqa səpkili xəbərlər yayaydınız. Sizin qəzetiniz təqdim etdiyi ən müxtəlif layihələrlə, maraqlı bədii-publisistik, tarixi, işğal altında olan torpaqlarımızla bağlı çox maraqlı yazılar təqdim edir. Əlbəttə, bu yazılar bizi Qarabağa bir addım da yaxınlaşdırır. “Qarabağa aparan yol” qəzeti fəaliyyətini sağlam təməl və prinsiplər üzərində qurub. Arzu edirəm ki, tezliklə bu yol bizi Qarabağa qovuşdursun. Qəzetinizin 400-cü ayının işıq üzü görməsi münasibətilə qəzetin rəhbərliyini və əməkdaşlarını təbrik edirəm.

## Prezident Rusiya Baş Qərargah rəisini qəbul etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə NATO yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu, bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir və Azərbaycan bunu yüksək qiymətləndirir. Dövlətimizin başçısı Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin eyni zamanda Azərbaycan-Rusiya əlaqələri ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi. İkitərəfli münasibətlərimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini deyən Prezident İlham Əliyev yüksək səviyyədə keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirdi. Təkcə bu il Azərbaycan və Rusiya dövlət başçıları arasında çoxsaylı görüşlərin keçirildiyini vurğulayan Prezident İlham Əliyev son dəfə Sankt-Peterburqda Rusiya Prezidenti ilə təmaslarını məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu il, eyni zamanda, ölkələrimiz arasında xeyli sayda sazişin və sənədin imzalandığını vurğulayaraq, qarşılıqlı fəaliyyətin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkələrimiz tərəfindən əldə olunmuş razılıqların icra edilməsinin önəmini qeyd etdi və buna nail olunduğunu bildirdi. Rusiya ilə Azərbaycanın dostluq münasibətlərinin tarixi sınaqlardan çıxdığını qeyd edən Prezident İlham Əliyev bu gün ölkələrimizin etibarlı tərəfdaş olduğunu, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qalxdığını dedi və Valeri Gerasimovun ölkəmizə səfərinin bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə dövlətimizin başçısı ilə görüşünü yüksək qiymətləndirdi. O, Ulu Öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət və xatirələrini ehtiramla yad edəcəklərini vurğuladı. NATO və ABŞ nümayəndələri ilə artıq neçənci dəfədir ki, Bakıda görüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və bu cür görüşlər üçün burada hər cür şəraitin yaradıldığını vurğuladı.

İkitərəfli münasibətlərə toxunan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**400-cü say deyirəm... Hələ bundan əvvəlki yüzlər də var. Yüz bütövü, tamı rəmzləşdirən bir rəqəmdir. ”Yüz yaşasın” deyirik. Kasıb malının, mülkünün yüzə çatmasını istər. Molla Nəsrəddin bacadan düşən 99 qızılı yüz olmasa, götürmək istəməyib. Bizim də sərvətimiz ruhumuzu, mənəviyyatımızı hopdurduğumuz qəzetimizdi. Hər dəfə yüzüncü sayı aşıranda, elə bilirik ki, nəsə müqəddəs bir iş görmüşük.**

*(Davamı 2-ci səhifədə)*

## Dağların o üzündəki Vətən...

### *Yaddaşımızın qaysaq bağlamayan yarası*





# Hədəf Qarabağın azadlığıdır *və ya* yol Qarabağadır

**“Qarabağa aparan yol” qəzeti bu günlərdə özünün 400- cü sayını qeyd edir. Bu, çox önəmli bir tarixdir: dövlətimizin müstəqilliyinə xidmət edən mühüm məsələlərin həllində tutduğu mövqeyi, bu mühüm mövzu ilə bağlı qəzetin fəaliyyət tarixi deməkdir. Adından da göründüyü kimi, bu nüfuzlu qəzetin yolu, hədəfi aydındır.**

“Qarabağa aparan yol” qəzeti nəşrə başladığı gündən üzü bəri öz səhifələrində, ilk növbədə, Qarabağın tarixinə, keçmişinə, maddi-mədəniyyət abidələrinə, bu torpağın yetişdirdiyi məşhur şəxsiyyətlərinə - görkəmli elm və mədəniyyət xadimlərinə aid maraqlı məqalələr nəşr edir. Ermənistanın işğalçılıq siyasəti ilə bağlı müxtəlif yazılara - erməni “xülyaları”nın doğurduğu faciələrə: xalqımızın düçar olduğu müsibətlərə daim öz səhifələrində yer ayırır, habelə qeyrətli Vətən övladlarımızın qəhrəmanlıqlarından, torpaqlarımızın azadlığı uğrunda həlak olmuş Azərbaycanın mərd oğul və qızlarından söhbət açır. Məhz bu mənada Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında bu mətbu orqan müstəsna rol oynamaqla, Qarabağ müharibəsi və onun dəhşətli nəticəsi olan məcburi köçkünlərin həyatına diqqət yetirir; onlara göstərilən dövlət qayğısından hərtərəfli söhbət açır, onların doğma yurd-yuvalarına qayıtmaq əzminə işıq salır. Beləliklə, qəzet bizi Qarabağdan, ona aparan yoldan ayrı düşməyə qoymur. Qəzetin araya - ərsəyə gətirilməsində gərgin əməyi olan əməkdaşları, yaxın dostlarım - baş redaktor hörmətli Əli Mahmudu, redaktor müavini tanınmış publisist Fariz Çobanoğlunu, gənc jurnalist Təranə Əlizadəni və qəzetin fədakar yazı müəlliflərini bu şərəfli yubiley münasibətilə ürəkdən salamlayır və təbrik edirəm. Qəzetin işıqlandıracağı bir sıra mühüm məsələlərin, aktual-həlli vacib mövzuların işlənməsində böyük uğurlar arzulayıram. Xülasə, yol Qarabağadır!

**Minaxanım NURİYEVA,**
**professor**

# Ürəklərdən keçən YOL

**Tale elə gətirib ki, mən “Qarabağa aparan yol” qəzetinin təsisçisi və baş redaktoru Əli Mahmudla cənnət Qarabağa gediş-gəlişli günlərimizdə tanış olmuşam. O vaxtlar mən Dövlət Yanacaq Komitəsinin birinci sədr müavini, bir müddət sonra isə sədr əvəzi işləyirdim. Əli Mahmudun təbirincə desəm, Qarabağı kənd-kənd, qəsəbə-qəsəbə gəzib erməni yaraqlıları tərəfindən söndürülən ocaqlara işıq paylayırdım, Qarabağ elinin xeyir-şər məclislərində iştirak edirdim.**

Təbii ki sonrakı silsilə faciələrimiz hamıya məlumdur. Ürəyimizin başına çalın-çarpaz vurulan Qarabağ yarasından hələ də qan sızır. Bu gün nədən danışsaq da, söhbətin axarı bizi Qarabağ mövzusuna, Qarabağ ağrısına yönəldir.



Məncə, “Qarabağa aparan yol” qəzeti də bu ağrı-acılara son qoymaq amalı ilə nəşrə başladı.

Yaradıcı insan kimi mən şair dostum Əli Mahmudun çox daxili iztirablarının şahidi və özünün dediyi kimi, şəriki olmuşam. Düzdür, təsis etdiyi qəzetin adı “Qarabağa aparan yol” olsa da, onun əsas missiyası gənc nəslə vətənpərvərlik tərbiyəsi aşılamaq, onları maarifləndirmək, tarixi yurd yerlərimizin unudulmaması-na çalışmaqdır.

Mənim də bu qəzetdə çoxlu yazım, müsahibəm dərc olunub. Onu da deyim ki, dünyanın ən azman söz ustalarından biri, dostum - Çingiz Torekuloviç Aytmatovun sağlığında bu qəzetdə çox maraqlı və geniş müsahibəsinin getməsinə yardımçı olmuşam, Belə ki 2006-cı ildə Brüsseldən Moskvaya gələndə Çingiz ağanın görüşünə ”Qarabağa aparan yol” qəzetinin baş redaktoru Əli Mahmudla birlikdə getdik. Və mənim xahişimlə böyük yazıçının Əli Mahmuda verdiyi ”Biz nəhəng türk ağacının qolları, budaqlarıyıq” adlı müsahibəsi ”Qarabağa aparan yol” qəzetinin oxucuları tərəfindən çox maraqla qarşılandı.

Mən də “Qarabağa aparan yol” qəzetinin 400-cü sayının işıq üzü görməsi münasibətilə dostum Əli Mahmudu və qəzetin redaksiya kollektivini təbrik edirəm, onlara bu müqəddəs yolda uğurlar arzulayıram.

**Hörmətlə,**
**Hüseynbala MİRƏLƏMOV,**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, yazıçı-dramaturq**

# Uğurlarınız Vətənimiz - Azərbaycanındır



**İxtisasca jurnalist olduğum üçün həyatımı qəzetsiz təsəvvür edə bilmirəm. Hər gün köşklərin qarşısından keçəndə, ən azı, iki-üç qəzet alıb oxuyuram. Doğrusu, elə qəzetlər var ki, onu alıb oxuduğuma peşman oluram. Çünki həmin qəzetlər böyük mənəviyyatın işıqlı səhifələri kimi oxunmur. Qəzet, kitab, yazı, ümumiyyətlə, ruhunun hopduğu hər hansı kağız parçası gərək müəyyən təsir gücündə olsun. Olmursa, demək, ona əbəs yerə zəhmət sərf olunub.**

Lakin ruhuma uyğun yazılar oxuduğum və oxuduqca zövq aldığım qəzetlər də az deyil. Belə qəzetlərdən biri də “Qarabağa aparan yol”-dur. Doğrudan da, bu qəzetdə gedən yazılar istər mövzu rəngarəngliyi, istərsə də yazılış səriştəsinə görə ruh oxşayır.

Yazılarda siyasətdən, tarixdən, respublikamızın mədəni-mənəvi həyatından, bütövlükdə, Azərbaycanımızın iqtisadi və siyasi uğurlarından bəhs edilir.

Amma əsas fikir doğma Qarabağımızın gələcəyinə, bu torpağın düşmən tapdağından azad olunmasına yönəldilib. Qarabağın azad olunmasına ünvanlanmış yazıları oxuyanda ürəyimiz az da olsa təsəlli tapır. Həmin günün yaxınlaşmasını hiss edir və ürəyimizi toxdada bilirik.

Mənə ən çox xoş gələn cəhətlərdən biri də odur ki, qəzet mövzuları əsasən öz adına uyğun seçir və vaxtlı-vaxtında oxucularına çatdıra bilir. Qəzetdə gedən şeir və hekayələr də çox zaman məhz Qarabağ ağrısına köklənir. Portret yazılar isə əsasən vətənkeş insanları bizə tanıtdırır. Demək istəyirəm ki, “Qarabağa aparan yol” qəzeti “tarix insanın əqidə və inam uğrunda mübarizəsidir” fikrinə hər zaman arxa-dayaq olduğunu sübut edir. Bu təsdiq, bu cəhd oxucusu olduğum adıçəkilən qəzeti gözümdə daha da ucaldır.

Bütün bunlar onu deməyə əsas verir ki, qəzetdə çalışan əməkdaşların hər biri sözünə və əqidəsinə məsuliyyətlə yanaşır. Bu məsuliyyəti qəzetin baş redaktoru Əli Mahmudun, baş redaktorun müavini Fariz Çobanoğlunun və nəşrin digər əməkdaşlarının simasında daha aydın görürəm.

Dəyərli həmkarlarım, uğurlarınız Vətənimiz Azərbaycanındır.

**Sahib ƏLİYEV,**
**Respublikanın əməkdar jurnalisti**

*(Əvvəli 1-ci səhifədə)*

# Dağların o üzündəki Vətən...

Daha doğrusu, bizə elə gəlir ki, qəzetin bu sayları ilə tarixin divarlarından qopub-tökülmüş kərpicləri yerinə qaytarıb -qoymaqla pozulmuş nizamı bərpa edirik. Əslində, elə belə də düşünmək olar. Fəqət, görmədiyimiz işlər gördüklərimizdən qat-qat çoxdur. Nə qədər çalışb-vuruşsaq da, hələ Qarabağa gedən yollardakı haqqımızı bütün dünyanın görə biləcəyi şəkildə bayrağımızın yanından asa bilməmişik. Bu, çox ağrılı bir məqamdı. Təsəllimiz odur ki, qəzetin bütün saylarındakı hər sözü, hər ifadəni həm də Qarabağa sarı gedən yollara düzdüyümüz daş hesab edirik. O daş ki söz qismində, söz biçimində bizim tariximizdi. Gələcək nəsillər həm də bu izlərlə Vətən torpaqlarının sərhədlərini tanıyacaq, onu düşməndən qoruya biləcəklər. Biz daşımızı düzürük. Tarixi rəvayətdə deyilir ki, Dədə Qurbaninin öz segisi uğrunda düzdüyü daşların nizamı şah babamız Xətai dövründən qalsa da, bu gün də hələ o nizam pozulmayıb. Cəbrayılda həmin daşların düzüldüyü yerə “pir” deyirdilər...



Mən bu qəzetə gələndə ürəyimin həsrətini gətirmişdim. Taleyin qışı, fəsillərin yazıydı onda. Hicranın, ayrılığın odasına gəlmişdim. Bu odaya bir Vətən guşəsi dedim. Ünvanı Qarabağ idi axı. Elə bu guşədə saç ağartdım, yaşa doldum. O vaxtdan üzübəri neçə isti yazın, neçə soyuq qışın içərisindən keçmişəm. 400-cü saya qədər bir ömürlük ağrılı, əzablı, iztirablı yollar ayaqlamışıq. Qəzetin hər sayını bir sevinc, bir inam, bir ümid parçası kimi ələ gətirsək də, hər dəfə sevincimizin üzərinə qar yağıb, qış çöküb, sevincimizi gələn bahara saxlamışıq...

Qələmimizin ucuyla hər qaranlıq gecənin gözünü açmağa çalışsaq da, səhərlərimizə yenə torpaq qəhəri, yurd həsrəti, ayrılıq qüssəsi, şəhid kədəri ələnib.

Yenə deyirəm, mən bura gələndə ilin yazı olsa da, içimdə dərdli Vətənin qışı idi. Təəssüf ki hələ də ürəkdən arzuladığımız qələbə sovqatlı bahar müjdəsi gəlməkdə yubanır. Başımız üzərindəki buludlar hələ də dağılmayıb. Havalar hələ də açılmayıb, davalar hələ də qurtarmayıb, hələ də haqq-ədalət öz yerini tapmayıb. Fəqət biz inamla, ümidlə yollarımıza çökmüş dumanı ruhumuzun nəfəsiylə, qələmimizin çırağıyla açmağa, silməyə çalışırıq.

“Qarabağa aparan yol” qəzeti bu didişmə-çəkişmə dünyasında hər zaman ayaqüstə durmağa, insanların gözünə açıq baxmağa çalışıb. Qəzetin hər bir əməkdaşı, hər bir yaradıcısı bu nəşrin səhifələrində həqiqəti təcəssüm etdirən yazılarına, qəlbinin dərinliklərindən qopub gələn düşüncələrinə, yurd həsrəti xatirələrinə ləyaqətlə imza atıb.

*(Davamı 3-cü səhifədə)*

# "Qarabağa aparan yol" özü bir məktəbdir



**Bu gün Azərbaycan media məkanı o qədər genişlənib ki, qəzetlərin ümumi sayını söyləməkdə çətinlik çəkirəm. Bəzi qəzetlərin baş yazarları öz mətbu orqanlarına elə əndirəbadi adlar seçirlər ki, adam ət tökür.**

Doğrusu, elə ona görə də bir növ mətbuatdan uzaq düşmüşdüm. Sağ olsun, təcrübəli yazar, peşəkar jurnalist İdris Hacızadəni ki məni yendiən mətbuata qaytardı. Belə ki özünün çalışdığı "Qarabağa aparan yol" qəzetinin bir yeni nömrəsini mənə verdi və qəzet elə ilk səhifəsindən də nəzərimi cəlb etdi. İlk nömrəni əvvəldən-axıra qədər oxuyub, başa çatandan sonra dostuma baxıb gülümsədim:

- Bax, buna deyərəm əsl qəzet, professionallıqdan yoğrulmuş mətbu orqan!. Elə o vaxtdan da "Qarabağa aparan yol" qəzeti mənim üçün sevimli mətbu orqan oldu. Həftəlik nəşrə başlayandan sonra açığını deyim ki, bu qəzet səriştəli və səliqəli tərtibatı ilə, ilk növbədə mənim bir rəssam olaraq könlümü oxşayır. Qəzetdəki materialların rəngarəngliyi, aktuallığı, bu günümzlə səsləşməsi, başlıca amildir. Təkcə qəzetin adı - sərlövhəsi çox şeyə aydınlıq gətirir. "Qarabağa aparan yol" ən yaralı yerimiz olan, 30 ildir ki, çörəkləri dizləri üstündə olan nankor və bədnam qonşularımızın işğalçılıq siyasəti nəticəsində qızıldan qiymətli torpaqlarımız zəbt olunmuş, bir milyondan artıq soydaşımız öz Vətənində məcburi köçkün vəziyyətində yaşayır. Doğma yurd-yuvasından perik düşmüş həmvətənlərimiz 30 ildir ki, Azərbaycanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmışlar.

Bəli, qəzet bu gün erməni işğalçılarına qarşı Qarabağ uğrunda mübarizə meydanında fəaliyyət göstərir. Öz qələmini süngüyə çevirən bu mətbu orqan 15 ilə yaxındır ki, qələmi silaha çevirmiş bir əsgər kimi fəaliyyətini davam etdirir.

Budur, bu da qəzetin mübarək 400-cü sayı. 15 ildə 400-cü say!

Qəzet o zaman oxunaqlı olur ki, orada mövzu zənginliyi, mövzu müxtəlifliyinə əməl olunsun. Bu cəhətdən "Qarabağa aparan yol" qəzeti diqqət çəkir. Bunu qəzetdəki çoximzalılıq da sübut edir. Qəzetdə mədəniyyətimizin, incəsənətimizin ümumi inkişafına, düşüncə tərzinin genişlənməsinə təkan verən yaradıcılıq məsələlərinə, eləcə də Azərbaycan türklərinə, onların fikir və düşüncələrinə, adət-ənənələrinə xüsusi önəm verilir. Əlbəttə, qəzetdə hərbi-vətənpərvərlik mövzusu, milli qəhrəmanlar, Qarabağ uğrunda döyüşlərdə həlak olmuş Vətən oğullarına həsr olunmu mövzular əsas yer tutur. Elə qəzetin son saylarının birində ömrünün 23 yaşında Vətənə qurban gedərək şəhidlik zirvəsinə yüksəlmiş sonuncu Milli Qəhrəmanımız Çingiz Qurbanovdan bəhs edən oçerki həyəcansız oxumaq olmur.

Bəlli olduğu kimi, öz yaradıcılıq yönümünü müəyyənləşdirmək, digərlərindən fərqlənmək, dövrün nəbzini tutmaq son dərəcə çətindir. Belə ciddi yaradıcılıq rəqabətinə, öz dəst-xəttinə sadiq qalmaq asan deyil. Amma fərəhlidir ki, "Qarabağa aparan yol" qəzetinin yaradıcı kollektivi bunu bacarır, öz ənənəsinə sadiq qalır. Mən bu fikirdəyəm ki, qəzet öz əhatə dairəsini daha da genişləndirəcək. Qəzetin hər nömrəsini vərəqləyib oxuduqca, aydın görürəm ki, burada ictimai-siyasi məsələlər, mədəni məişət problemləri, ədəbi-bədii düşüncə sahiblərinin, tanınmış ədəbiyyatşünasların, bir sözlə, bədii söz ustalarının, eləcə də məşhur rəssamların yaradıcılığına həsr olunmuş yazılar oxucuların da dünyagörüşünün formalaşmasına impuls verir.

Sonda "Qarabağa aparan yol" qəzetinin baş redaktoru, tanınmış söz xiridarı, şair və publisist, Qarabağ dərdini çiyinlərində gəzdirən Əli Mahmud başda olmaqla bütün yaradıcı kollektivi qəzetin 400-cü sayı münasibətilə ürəkdən təbrik edir, onlara istəklərinə çatmağı - Şuşada, Xankəndidə, Ağdamda, Kəlbəcərdə, Laçında qələbə bayrağının sancılması kimi yeganə arzumuz olan xoş xəbəri çatdırmalarını arzulayıram.

**Rauf SƏMƏDOV,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi, rəssam**

# Qarabağ bizimdir, bizim də olacaq!

**Danılmaz bir həqiqətdir ki, hər bir mətbuat orqanının – istər qəzet olsun, istərsə də jurnal – öz yolu, öz məramı, öz yazı üsulu, öz dəst-xətti, başqa sözlə, öz sifəti olmalıdır. Bugünkü qəzet bolluğunda seçilmək, sevilmək hər qəzetə müyəssər olmur. Konkret «Qarabağa aparan yol» qəzetinə gəldikdə isə, bu mətbu orqan elə ilk sayından oxunan, yolu gözlənilən qəzet olub. Mən də «Qarabağa aparan yol»u gözləyənlərdən biriyəm. Ona görə ki bu qəzetin hər sayını oxuyanda gözlərim önündə Böyük Qarabağ - «Qafqazın Konservatoriyası» Şuşa, eləcə də Xankəndi, Ağdam, Füzuli, Cəbrayıl... gəlib durur və hər dəfə də belə dərin təəssüf hissi keçirirəm: nə yazıqlar ki, Azərbaycanın həmin cənnətməkan bölgəsi düşmən əsirliyindədir.**

Əslən qarabağlı olmasam da, Vətənimin bu dilbər guşəsi mənim üçün (bütün azərbaycanlılar kimi) əzizdən əzizdir, doğmadan doğmadır. Bu gün bizim hər birimiz qarabağlıyıq.

"Qarabağa aparan yol"un hər bir nömrəsini oxuyarkən, bu gün çox uzaqlarda qalmış və heç vaxt da unudulmayacaq xatirələrimə qayıdıram. O vaxt xeyli cavan idim. Bir gün məni, may ayının ilk günlərində Azərbaycan KP MK-nın göstərişi ilə Moskvadan gəlmiş bir qonağı (köhnə bolşeviki) müşayiət etmək üçün Qarabağa göndərdilər. Xankəndidə (keçmiş Stepanakert), Şuşada və ətraf kəndlərdə mən qonağı müşayiət edirdim. Bizə xüsusi bir maşın da təhkim olunmuşdu. Gündüzlər qonağın planına əsasən lazım olan ünvanlarda olur, gecələr Xankəndidəki qonaq evində qalırdıq. Gündüzlər haralara getməyimizdən asılı olmayaraq, axşamüstü maşını mütləq Şuşaya sürdürürdüm. Şuşanın mayı, axşamüstü. Girəcəkdə, hələ o vaxt sorağı uzaqlara yayılmış o məşhur çayxanaya gələr, orada ətri ətrafa yayılan kəkotu çayından doyunca içərdik. O kəkotu çayının dadı tamı hələ də damağımdan getməyib. Vaxt tapan kimi moskvalı qonağa bu ecazkar yerlərin tarixindən, Şuşanın təkcə Azərbaycanın deyil, bütün Qafqazın mədəniyyət mərkəzi olduğundan söhbət açır, ermənilərin isə bu yerlərə yalnız 1828-ci ildən, bədnam "Türkmənçay" müqaviləsindən sonra İrandan, Türkiyədən köçürüldüklərini, xalqımızın həmin köçkün haylara (ermənilərə) sığınacaq, torpaq, su, hava, çörək verməsindən ürəkdolusu danışırdım. Mən geniş məlumat verdikcə qonağın hərdən üzümə baxıb, qımışdığını, lakin başqa heç bir söz deməyinin də fərqinə varırdım, deyəsən, onun Qarabağın tarixindən xəbəri var idi.

O vaxt Şuşa şəhər PK-nın birinci katibi tanınmış jurnalist, qeyrətli eloğlumuz, vətənpərvər bir şəxsiyyət olan Qəşəm Aslanov idi. Mən onu "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru olduğu vaxtdan tanıyırdım. Qəşəm müəllim bizi hər gün Şuşanın əsrarəngiz yerləri ilə tanış edirdi. Cıdır düzü, "Qırxqız" bulağı, Turşsu bulağı və daha haralara aparmırdı! O vaxt Şuşada geniş tikinti-quruculuq işləri geniş vüsət almışdı. Qəşəm müəllim mənə deyirdi ki, Şuşanın keçmişi ilə bugününü vəhdətdə göstərməyə çalışırıq. Hara gedirdiksə, mənzərəli yerlərdə şəkillər çəkdirirdik.

Mən hələ o vaxtlar qürur hissi keçirirdim ki, Vətənimin Qarabağ, Şuşa kimi gözəllliklər məskəni var. Bu yaşıma qədər dünyanın çox yerində olsam da, Şuşada olan təmiz, ürək məlhəmi olan havanı heç yerdə görməmişəm. Bax, mən "Qarabağa aparan yol" qəzetini oxuyanda, yenidən o yerlərə, o günlərə qayıdıram. Qəzetdən sanki o yerlərin iyini, ətrini alıram. Qəzetlə bərabər, qələminə, istedadına, şair ilhamına çoxdan bələd olduğum nəşrin baş yazarı Əli Mahmudun publisistik yazılarını, şeirlərini oxuyanda da Böyük Qarabağ bütün çalarları ilə xatirəmdə canlanır. Qarabağın ağsaqqalı olan Əli Mahmudun şeirlərində ürəkdağlayan bir həsrət, bir intizar, bir qübar var. "Dərdlərim", "Şuşada nəyim qaldı?", "Məni dağlara aparın" kimi şeirlərini həyəcansız oxumaq olmur. "Kəndim əsirlikdə qalıb"şeirində isə şair əlinə fırça götürən mahir rəssam olaraq əsirlikdə qalan kəndinin o mənzərəsini tablosunda canlandırıb:

**Köhlənlərin hörükdədi,**
**Nallar, mıxlar körükdədi,**
**Qırxlı çağa yürükdədi -**
**Kəndim əsirlikdə qalıb.**

**Kösövsüsdü ocaq yeri,**
**Yandırılıb çal-çəpəri,**
**Göyərib südü-pendiri -**
**Kəndim əsirlikdə qalıb.**



**...İstisiylə, soyuğuyla**
**Qoruğuyla, oyuğuyla**
**Cücəsiylə, toyuğuyla -**
**Kəndim əsirlikdə qalıb...**

Hörmətli Əli müəllim, canınıza sağlıq istəyin: bu həsrətin, ağı-acının içərisində, daxilində vüsala qovuşmaq ümidi də vardır. O gün gələcək. Hamımız o günü böyük səbirsizliklə gözləyirik. Qarabağ mənfur erməni işğalçılarından azad ediləcək. "Qarabağa aparan yol" qəzeti də üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, Ağdamda, Füzuli və Cəbrayılda dalğalanması barədə xoş xəbəri ilkin olaraq bütün dünyaya bəyan edəcək.

Mən sözümün sonunda "Qarabağa aparan yol"un qəzetinin bütün kollektivini, qəzetlə, əməkdaşlıq edən qələm sahiblərini mətbu orqanın 400-cü sayına gəlib çatması münasibətilə ürəkdən təbrik edirəm!

**Musa QULUZADƏ,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix üzrə elmlər doktoru, əməkdar müəllim, Azərbaycan Yazıçılar Birliyinin üzvü**




# Dağların o üzündəki Vətən...

*(Əvvəli 2-ci səhifədə)*

"Qarabağa aparan yol" elm, mədəniyyət, incəsənət, tarixin gedişatına obyektiv, qərəzsiz yanaşmaq yolu tutub. Həqiqəti aramaq-tapmaq, tapdığımız o şirinli-acılı neməti oxucularımıza da dadızdırmaq bizi çətin də olsa, yaşadır. Haqqa gəl, ey insan! fikri qəzetimizin mənəvi etiketidir. Doğrusu, mətbu orqanın 401-ci sayından etibarən bu çağırşı ön səhifədə - qəzetin bütün səhifələrinin ümumi başlığı kimi görmək istəyirəm. Çünki konkret ifadə etsək, qəzetin 400 nömrəsinin hər birini bu hikmətin işığında ərsəyə gətirmişik. Rəqəm olaraq 400 deyirik, bəlkə bu vaxta qədər dörd yüz yox, dörd milyon dəfə "haqqa gəl, ey insan!" deyə səslənmişik.

*(Davamı 4-cü səhifədə)*

# Altay Həsənov: Bakıda Beynəlxalq Gimnastika Federasiyasının Konqresində qəbul olunan qərarlar dünya gimnastikasının inkişafına daha da təkan verəcək



**Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Bakıda keçirilən 82-ci Konqresində qəbul olunan qərarlar dünya gimnastikasının inkişafına daha da təkan verəcək.**

Bunu jurnalistlərə Azərbaycan Gimnastika Federasiyasının (AGF) vitse-prezidenti Altay Həsənov deyib.

A.Həsənov qeyd edib ki, Azərbaycanda gimnastika idman növü son 10 ildə çox sürətlə inkişaf edib: **"Azərbaycan Gimnastika Federasiyası mötəbər tədbirlərin təşkili üzrə böyük təcrübə toplayıb. Bu dəfə isə Bakıda idman yarışı deyil, ilk dəfə Beynəlxalq Gimnastika Federasiyasının Konqresi kimi mötəbər tədbir keçirilir. Bilirsiniz ki, 2017-ci ilin mayında Beynəlxalq Gimnastika Federasiyası Şurasının iclası da məhz Bakıda təşkil olunmuşdu. Qonaqların da dediyi kimi, hər şey çox uğurla keçidi. Federasiyamız həmişəki kimi hər şeyi yüksək səviyyədə təşkil etmişdi. İnanıram ki, Konqresdə qəbul olunan qərarlar dünya gimnastikasının inkişafına daha da təkan verəcək. Buna görə də biz Bakıda belə tədbirlərin keçirilməsindən çox şadıq".**

AGF-nin vitse-prezidenti xatırladıb ki, gələn il Bakıda bədii gimnastika üzrə dünya çempionatı və gimnastikanın digər növləri üzrə dünya kubokları keçiriləcək: "Yeni Azərbaycan Gimnastika Federasiyasının qrafiki sıxdır, lakin biz həmişəki kimi hər şeyin öhdəsindən gələcəyik".

A.Həsənov vurğulayıb ki, Azərbaycan artıq gimnastikada öz sözünü deyib və qələbələrimiz hələ irəlidədir:

**"Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığına çox yüksək qiymət verirlər. Ötən il federasiyamız FIG tərəfindən yenə də dünyada ən yaxşı federasiyalardan biri seçildi. Bildiyiniz kimi, 10 il bundan əvvəl bizdə ən güclü inkişaf edən bədii gimnastika idi, bu növə çox önəm verirdik. Sonra Bakıda keçirilən İlk Avropa Oyunları öncəsi qərar qəbul olundu ki, gimnastikanın bütün 6 növünü bərpa edək və inkişaf etdirək. Bu baxımdan bir qədər çətinliklərimiz də var, çünki kadr ehtiyatı azdır, məşqçilər axtarırıq. Bununla belə, inanıram ki, tədricən bütün işlərin öhdəsindən gələcəyik və dediyim kimi, yüksək nəticələrimiz, qələbələrimiz hələ irəlidədir".**

# Ağrısı səngiməyən dərdimiz...

**Çaynikimiz sınmışdı, neçə gün idi çək-çevirdəydim ki, Əli müəllimə necə çaynik aldırım... Çobanoğlu 28-dən gəlirdi. Dedi, məni yolda yaxalayıb mikrofon uzatdılar ki, yeni ildə Şaxta babadan nə istəyirsiz? Əvvəl biraz duruxdum, amma tez-tələsik özümü toparlayıb istədiklərimi dedim.**

Bir saat sonra Əli müəllim də redaksiyaya gəldi. Fariz müəllim siqaret çəkmək üçün bayıra çıxmışdı. Bilmədim söhbətə necə başlayam. Özümə ciddi görkəm verib, qayıtdım ki, Əli müəllim, Çobanoğluna yolda mikrofon uzadıb soruşublar, Şaxta babadan nə istəyirsən? O da deyib çaynik.

Əli müəllim güldü, üstündən də, bəs çaynikə nolub?- soruşdu. Dedim, çaynik sındı. Dedi, Çobanoğlu ağıllı adamdı, yaxşı eliyib çaynik istəyib, Şaxta baba təzəsini alar.

Bir az keçdi, Çobanoğlu otağa daxil oldu. Sakitcə oturub nəsə yazırdı. Əli müəllim qayıtdı ki, Fariz, yolda sənə mikrofon uzadıblar?

- Hə, Əli müəllim - deyib başladı sadəlövhcəsinə nağıl eləməyə:

- Soruşdular Şaxta babadan nə istəyirsən? Dedim, yurdumuzu istəyirəm, qarşıdan gələn il bizə yurdumuzu qaytarsın, heç nə istəmirik.

Tələsir Əli müəllim: - Hə, sonra?

- Həə, sonra dedim, firəvanlıq olsun, səadətimizə qovuşaq...

Əli müəllim dinlədidinlədi, axırda qayıtdı: Ə, bəs Şaxta babadan çaynik istəməmisən?

Çobanoğlu tutuldu, biz isə ona baxıb özümüzü bura qədər ancaq saxlaya bildik. Gördü gülürük, çevrilib üzümə baxdı:

- Demədim demə?

Yarızarafat, yarıciddi başını yellədi: -məni işdən çıxaracaqlar...

Dizayner ordan qayıtdı ki, o deməyib, indicə internetdə səni göstərirdilər, videoda gördük, yaman danışmısan.

... Ötən il redaksiyadakı son xatirəmiz bu əhvalat oldu. Həmin gün düşündüm ki, Əli müəllim doğrudan da bizim Şaxta



babamızdı. Bunu özünə deməmişəm, amma demək istəyərdim. Elə doğrudan da, Şaxta babaya oxşayır. Onu görəndə adam sevinmək istəyir. Kimin baş redaktoru necədi - bilmirəm. Amma mən hər dostuma öz redaktorumdan birini arzulayardım. İstərdim onlar da belə xoş təəssüratlı ünvanlarda böyüsünlər. Sonrasından qorxmur adam. Hər kəsin ilk açdığı qapı bunca fədakar olsun. Məncə, yaxşı iş də insan üçün bir mükafatdı - mükafatlandırılmışam. İşləmək üçün müvəqqəti gəldiyim, xeyli vaxt özümü müvəqqəti hesab etdiyim yerdən indi gedə bilmirəm. Bəlkə də mən o yerdən yox, orda tanıdığım adamlardan gedə bilmirəm. O pəncərəyə, o sarmaşığa, o qapıya vaxtında demişdim hələ, demişdim, gəl məni özünə öyrətmə belə, əlimi əlinə öyrətmə belə, gözümü gözünə öyrətmə belə.

Dünən Fariz müəllim yazı yazırdı. İlk cümləsi isə belə oldu: "Mən bura gələndə yaz idi, indi isə qışdı". Dedim, Fariz müəllim, təsadüfə bax, mən gələndə də yaz idi. Gəl bunu belə edək, biz bura gələndə yaz idi, indi isə qışdı. Bəzən mənə elə gəlir ki, burdakı insanların taleyi bütün məsələlərdə bir-biriylə eynilik təşkil edir. Ona görə də bizim tək-tək danışmağa haqqımız yoxdu. Elə bil hamımız bura yazda gəlmişik, elə bil hamımız üçün indi qışdı. Elə bil qış bizi bir-birimizdən nə az, nə çox üşüdür. Biz hamımız eyni temperaturda üşüyürük. Səhv başa düşülməsin, düzünə qalsa, redaksiyamız həmişə isti olur. Ürəyimiz də heç soyuq deyil. Amma biz yenə də üşümək yolunu tutmuşuq.

"Qarabağa aparan yol" yaz, yay, payız, qış demədən 400 addım atıb, elə bilirəm qarənəfəsdi. Amma mən ona güvənirəm, hələ bir bu qədər də qaça bilər. Kaş heç ehtiyac olmaya. Amma lazım gəlsə, onun min, yüz min belə addım atmağa təpəri, taqəti var. Bəlkə də yeganə qəzetik ki, kimsə redaksiyaya girib "yolunuz haradı?" deyə soruşmur. Çünki yeganə qəzetik ki adımız həm də devizimizdi. Hara getdiyimizi hamı yaxşı bilir.

Bəzən hansısa yolda bir avtobus adam görərsən, həm də görərsən ki, bu bir avtobus adamın kimisi yatmış, kimisi oyaq. Amma "Qarabağa aparan yol"da hamı oyaqdı. Təəssüf ki insanın ağrıyan yeri onun həm də yuxusunu qaçırır. Hansısa bir əzamızı ağrıyanda anamız həmin yerə məlhəm qoyub ağrımız kiridə bilir, amma insanın yurd ağrısı, nə analıq, nə təbiblikdi. Heç dünyanın ən yaxşı təbib-loğmanı da bu ağrıya məlhəm qoya bilmir.

Bizim redaksiya 6-da yerləşir. Bu mərtəbənin əvvəlində bizik, sonunda "Ədalət" qəzeti. Həmişə "Qarabağa aparan yol"-dan keçib gedib "Ədalət"in qarşısında dayanmaq istəmişəm ki, de görüm, doğrudandamı bu yolun sonu ədalətdi, yoxsa burda elə-belə dayanmısan?

Bizi tanıyanlar yaxşı bilir ki, əvvəllər redaksiyamız 9-cu mərtəbədə yerləşirdi. İndi isə... Heç nə təsadüf ola bilməz. "Qarabağa aparan yol"un 9-cu mərtəbədən 6-ya düşərək gəlib "Ədalət"in yanında dayanması da təsadüf ola bilməz. Biz həmişə ədalətin yanında olmuşuq, inanıram ki, ədalət də bizim yanımızda olacaq. Sevinc və Sədaət kimi... Qonşu redaksiyadakı qızları deyirəm. Onlar bizim qapını həmişə cüt açırlar. İnanıram ki, sevinc və səadət təkcə "Qarabağa aparan yol"un yox, elə Qarabağın da qapısını qoşa açacaqlar.

Hə, bir də "Qarabağa aparan yol" yeganə qəzetdir ki, indi mən sizə "500-cü nömrədə görüşərik..." deyə bilmərəm.

**Təranə ƏLİZADƏ**

# Dağların o

*(Əvvəli 3-cü səhifədə)*

Bizi eşidən də var, eşitməyən də. Amma Allah insanı yaradanda onun hər zaman tərbiyəyə ehtiyacı olduğunu bilirdi. Qəzetimiz vasitəsilə cəmiyyətdəki mənəvi mühiti sağlamlaşdırmağa çalışmışıq. Gənc və müstəqil dövlətimizə ən müxtəlif mövzulu məqalələr, yazılar vasitəsilə dayaq durmaq istəmişik. Torpaqlarımızın böyük bir hissəsini işğal etmiş düşmənlə mübarizəmiz bir an da olsun səngiməyib. Tariximizə qara yaxanlara, dövləti içərisindən parçalamaq istəyən qüvvələrə qarşı hər zaman direniş göstərmişik. Dövlətimizi sevən, inkişafımıza, tərəqqimizə sevinən dünya ölkələrilə münasibətlərimizin daha da yaxşılaşmasına səy göstərmişik.

Qələmin, sözün gücü nəyə qadirdisə, Vətən, bəşərilik, dünyəvilik naminə o nöqtəni, o mərkəzi tapmaq ən böyük arzularımızdan, istəklərimizdən biri olub. Bu fikir bizim məsuliyyətimizin bəlkə də ən doğru göstəricisi ola bilər. Amma təəssüf etdiyimiz məqamlar az deyil. Ən azından, bir suala bu günə qədər də doğru- dürüst cavab verməkdə çətinlik çəkirik. Qəzetimizin adı bir tərəfdən yurda, Vətənə aşiqliyimizin carçısına dönürsə, bir tərəfdən də, bizim üçün hər zaman ittiham yeri kimi qalır. Çünki redaksiyanın qapısından içəri daxil olan hər kəs eyni sualı verir: "Qarabağa aparan yolun axırı necə olacaq?"

Qarşı tərəfin ittihamını çox vaxt görməzdən gəlib, "Qəzetimiz mütəmadi çap olunur. Çalışırıq ki, bu yolu sona çatdıraq"- desək də, sual verən hara işarə vurduğunun dərinliyinə varır. Yaranın dərinliyi axı ağrıdır onu. Doğru da edir. Qarabağa aparan yolun axırını soruşur. Yollar bitməlidir axı. İstər hava yolu, istər dəmir yolu, istər məktəb yolu, istər Vətənin hüdudlarına qədər gedib çatan yollar... Bilirsən ki, hardasa sonuncu bir dayanacaq var. Bizdən də onu tələb edirlər. Cəbrayıllı Cəbrayıla getmək istəyir, şuşalı Şuşaya, ağdamlı Ağdama, Xocalıdan olan da doğmalarının, əzizlərinin qanı ilə sulanmış o torpağa - Xocalıya dönmək istəyir. Başa düşürük. Oxucularımız da, qapımızı hər hansı niyyətlə döyən hansısa bir qonaq da gərək bizi başa düşsün. Əslində, biz Qarabağa aparan yol deyəndə, böyük vətəndaşlığın yolunu, səmtini göstəririk. Gərək hər kəs bu yolla getmək üçün silahlansın. Sözü olan sözüylə, topu-tüfəngi olan top-tüfəngi, çörəyi, suyu olan torbası, kisəsiylə...

Bizi doğma torpaqlardan 30 ilə yaxın bir zaman fasiləsi ayırır. 30 illik həsrət, ayrılıq onu qəlbində, ruhunda yaşadan hər kəsi bu illər ərzində ağ saçlı, əli, sir-sifəti qırışmış bir qocaya döndərə bilər. Elə döndərib də... Dərd bizi yedikcə, daha çox anlayırıq - Vətən şirindi, "yar hamıdan şirindi" desələr də...

Hər kəs məzarının doğulduğu torpaqda, yurdda olmasını istəyir. O hesabdan gör nə qədər soydaşımızın vəsiyyətini yerinə yetirə bilməmişik. Külli Qarabağdan qopub gələn neçə-neçə doğma, yadımızdan yaranan qəbiristanlıqların hərəsi didərgin bir yurd yeridi.

Tarix adlı hakim haqqa, ədalətə gələndə, ordumuz son sözünü deyəndə, bu qərib məzarlıqlarda Vətən həsrətilə uyuyan hər bir eloğlumuzun da ruhu doğma torpağına qovuşacaq.

Qəzetimizin 400-cü sayına təbrik yazmaq istədim. Qapı yanından asdığımız geniş aynanın qarşısında dayanıb gözümdəki kədəri qovmağa çalışsam da, alınmadı. Gücüm ona çatdı ki, aynadakı əksimi gətirib bu yazıya



# Çətin yolun qələmi...

**"Qarabağa aparan yol"-u mənə içimdəki Vətən ağrısını tanıdıb. Nə vaxtsa, əlimə düşən təsadüfi nömrəsindən sonra bu qəzetin daimi oxucusu olmuşam. Qəzet növbəti saylarında özü aramızdakı bir körpüyə çevrilib.**



Hər dəfə uşaqlığım keçən yerlər qəlbimdə baş qaldırdıqca, "Qarabağa apara yol"u arayıb, axtarmışam. Bu qəzetin səhifələrindən Laçın, Şuşa, Cəbrayıl, Zəngilan, Qubadlı, qoynundan uzaq düşdüyümüz neçə-neçə doğma, əziz yerlərimiz, uşaqlığım radan, yazan qələmə "Çətin yolun qələmi" deyirəm.

Ölkəmizin dünyaya inteqrasiyasından, sivil aləmə qovuşmasından tutmuş, ən xırda problemlərimizə qədər "Qarabağa aparan yol"un böyük və kiçik mövzularıdır.

"Qarabağa aparan yol" Çalışdığım Azərbaycan Dövlət Pedaqoji Universitetində də "Qarabağa aparan yol"u tanıyanlar və onun yolunu gözləyənlər çoxdur.

Qəzet bir milyondan artıq qaçqın və məcburi köçkünlərimizin də problemlərini, onların dərd-sərini araşdırıb, onlara göstərilən dövlət qayğısını da gündəmə gətirən çox az sayda mətbu orqanlardan biridir. Dövlət və hökumətimizə sədaqət, ulu öndərin bizə miras qoyduğu azərbaycançılıq yolu elə bu qəzetin seçdiyi yoldu. "Qarabağa aparan yol" deyəndə, elə həm də bu fikirlər yadıma düşür. Baş redak-

keçən yaylaqlar, istər Kəlbəcərdə, Laçında, Qafanda, istərsə də, Azərbaycanın işğal altındakı digər təbiəti, coğrafiyası olduqca zəngin və mənzərəli olan dilbər guşələri boylanır...

Ərazilərimizin hər birinin adı "Qarabağa aparan yol"da tez-tez çəkilir. Oxuduğum xatirə yazılarda doğma torpaqların ətri duyulur. Qəzet bütün gücü və məsuliyyətilə insanı Vətən torpağına bağlamaq yolunda fədakarlıq nümayiş etdirir. Qəzetin ən böyük qiyməti orasındadır ki, bir kütləvi informasiya vasitəsi kimi bu mətbu orqan həm də öz adına sığmır. Kiməsə elə gələ bilər ki, qəzetdə söhbət elə təkcə Qarabağdan gedir. Lakin qəzetin gündəlik oxucusuna çevrilənlərin hər birinə bəllidir ki, söhbət müqəddəs amallardan, Vətən taleyindən, bütöv Azərbaycan arzusundan gedir. Elə ona görə də mən bu qəzeti yaoxucularında Azərbaycan sevgisi oyadır. Zəngin səhifələrilə, cəmiyyətə bəxş etdiyi maarifləndirici və vətənpərvər yazılarıyla yeni gənclik yetişdirir. O gənclik ki Azərbaycan elminin bütün sahələrini həvəslə oxumaq, öyrənmək əzmində böyüyür. "Qarabağa aparan yol" hər cür dedi-qodudan, şər-böhtandan uzaq olduğu üçün qərəzli, kinküdurətlə dolu, cəmiyyətin ruhunu zəhərləyəcək yazılardan olduqca kənardır. Yalnız belə bir qəzet özü üçün sağlam yaradıcı mühit yarada bilər. Qəzetin siması necədirsə, onun yaradıcıları da elə o rəngdə, o ruhda olmalıdırlar. Şahidiyəm ki, bu səhifələrdə mənəviyyatı büllur kimi saf olan imzalar çıxış edir. İstər ədəbiyyat, tarix, siyasət, tibb, istərsə də elmimizin bir çox digər sahələrini əhatə edən tanınmış yazarlar "Qarabağa aparn yol"a aydınlıq gətirirlər.

tor - bizim dəyərli Qarabağ ağsaqqalı şair Əli Mahmudun da xətrini çox istəyirəm. Dövlət tədbirlərində, toy və şənliklərdə tez-tez görüşürük. Ehtiram göstərdiyim, dəyər verdiyim dostlarımdan, ziyalılarımızdan biridir. Onun redaktorluğu ilə 15 ilə yaxındır ki, bu qəzet mütəmadi olaraq nəşr olunur. Yayıldığı əhatə dairəsi ötən illərə nisbətən daha da genişlənib. Daha çox oxucu rəğbəti, sevgisilə indi üz-üzədir. Qəzet hərdən mənim də yazılarımı çap edir. Fürsətdən istifadə edib, buna görə redaksiyaya xüsusi təşəkkür etmək istəyirəm. 400-cü sayın ayağı düşərli olsun, artıq bir neçə gündən sonra il başa çatacaq. 2019-cu il "Qarabağa aparan yol" üçün uğurlu olsun, tezliklə yurd yerlərimizə dönək...

**Əli ZALOV,**
**Kimya elmləri doktoru, professor**

# Qoy Məkkəmiz ŞUŞA, Mədinəmiz XANKƏNDİ olsun!

**"Qarabağa aparan yol" qəzetinin nəşrə başladığı günlər çox yaxşı yadımdadır. Bu qəzetin ilk saylarından başlayaraq ta bu günəcən dərc etdiyi bütün yazılarda Qarabağ həsrətilə çırpınan və qovrulan qəlblərin harayı var. Qəzet artıq 13 ildən çoxdur ki, Qarabağ nisgili ilə yaşayan oxucuların "Mənzil başına dönmək" arzularna qol-qanad verir.**

İndi qəzetin hər sayını görəndə özüm-özümə sual verirəm: Görəsən dünyada Şuşa həsrəti ilə, Qarabağı görmək arzusuyla yaşayan nə qədər azərbaycanlı var?!

Belə bir deyim var ki, bütün QƏLƏBƏLƏR inamdan, daxili gücdən mayalanır. Axı bizim də daxili gücümüz Vətən eşqindən, Yurd məhəbbətindən, Ocaq müqəddəsliyindən, Tanrı sevgisindən yoğrulib. Bəs görəsən Qarabağdakı müqəddəs ocaqlarımız nə vaxdacan düşmən işğalında qalacaq?..

Qəribə də olsa, bu suala cavab düşünəndə Qarabağ işğal olunandan bəri hər il külli miqdarda pul xərcləyib Məkkə, Mədinə və Kərbala ziyarətlərinə gedən soydaşlarımız göz önümdə canlanır. Eləsi var ki, on-on beş, hətta iyirmi dəfə həmin yerlərə ziyarətə gedib. Bəlkə o adamlar peyğəmbərinin VƏTƏNİ SEVMƏK imandandır buyuruğunu unudublar?..

Elə bu duyğularla bir neçə il əvvəl Şuşa həsrətiylə qələmə aldığım yazılarımın birində Mirzə Cəlilsayağı belə təklif irəli sürdüm: " Qoy Azərbaycandan Həcc ziyarətinə gedən zəvvarlar bir dəfə də marşurutu dəyişdirib ŞUŞAYA - şeytana daş atmağa getsinlər! Məkkəmiz ŞUŞA, Mədinəmiz XANKƏNDİ olsun! Əgər tökülən qanlar, ehsan edilməli pullarımız varsa, gözümüzün qarşısında QARABAĞ məbədgahı durur..."



Bəli, bütün yolların sonunda müqəddəs bir məbədgah görünür. "Qarabağa aparan yol"un son məbədgahı da Şuşa başda olmaqla işğal altında olan bütün rayonlarımızdır. Onu da qeyd edim ki, iki il səkkiz ay öncə Aprel döyüşləri qısa çəksə də, illər boyu içimizdə közərən Qarabağ eşqini alovlandırdı... Üç- dörd gün ərzində doğma və müqəddəs MƏBƏDGAHlarımıza gedən yollara igid əsgərlərimizin al qanı işıq saçdı...

O Aprel günləri Qarabağ bir anlıq KƏRBALA MEYDANINA döndü. Vətən uğrunda yenə şəhidlər verdik... Düşmən igid əsgərlərimizin həmləsinə tab gətirməyib geri çəkildi.

Və o Aprel günləri fəxr etdik ki, bizim Azərbaycanımızın mənəvi gücü onun maddi gücündən qat-qat önə keçməyə qadirdir. Mən nədənsə o günlərdə "Qarabağa aparan yol" qəzetinin ilk sayında (28 sentyabr 2005-ci il) dərc olunmuş "Şuşaya Qələbə Bayrağını kim sancsın?" sərlövhəli yazımı xatırladım...

Ümumiyyətlə, mənim bir müddət "Qarabağa apar yol"da çalışmağımın bədii yaradıcılığıma çox böyük faydası olub. "Qara sarmaşıq" romanımın üzərində işləyərkən mən qəzetin təsisçisi və baş redaktoru Əli Mahmudun söhbətlərindən çox bəhrələnmişəm.

Görkəmli tənqidçi Vaqif Yusifli əbəs yerə demir ki, Əli Mahmudun Şuşa həsrətli poeziyasını, Qarabağ həqiqətlərini car çəkən publisistikasını həyəcansız oxumaq mümkün deyil... Bax, mən də Əli müəllimin mənəvi bələdçiliyi sayəsində Qızıl qayanı, Qiblə bulağını, Qırxqızı, Cıdır düzünü, Ərgünəşi, Sınıq Körpünü, Şuşa qalasını, Əjdaha bulağını və s. yerləri gördüm "gördüm".

...Qarabağsız qaldığımız bu illər ərzində Şeytanı və onun nökərlərini düz yollarımıza kötük diyirlədib, Çin səddi çəkən Siyasət qılığında da görürük... Qarabağa gedən Yollarımız isə kaman kimi gərilib. Bu gün bizdən ötrü Qarabağa aparan yollar həm də millətimizin Bəxt Yoluna dönüb...

Vətən yolu - HAQQ yolumuzdur...

Arzum budur ki, "Qarabağa aparan yol"umuz uğurlara vəsilə olsun!

400-cü sayının işıq üzü görməsi münasibətilə qəzetin baş redaktoru Əli Mahmudu və bütün əməkdaşlarını ürəkdən təbrik edirəm.

**Nurəddin ƏDİLOĞLU,**
**yazıçı-jurnalist**

# üzündəki Vətən...

köçürüm. Nə edim axı? Elə "Qarabağa aparan yol" həm də qüssə qarışmış bu təəssüratdan keçib gedir. 400-cü sayda mənim də qələmimin ləpiri olmalıydı. Məncə, bu izlər elə Vətənə sarıdı. Daha doğrusu, 400-cü saydakı bu ləpirim məni ruhumdan tanıyan adamlara üreyimdəki yurdumu göstərmək çabamdı. Qəlbimizdəki yurd yerlərini işğal etməyə düşmənin gücü çatmayacaq.

Əsgərlikdəki oğlum hərdən vaxt tapıb bizimlə əlaqə saxlayır. Deyir ki, ata, burda çox yüksəklikdəyik. Dumanlı dağların başından üzü o tərəfə Vətən görünür. Ucsuz-bucaqsız meşələr, ormanlar, Qarabağın hər yeri burdan əl içi kimi göz önündədi.

Əsgərin belə deməyi məni sevindirir. Deməк, mənim ruhumda gəzdirdiyim həsrət onun da sinəsində göynəyir. Qarabağ təkcə hündür dağların zirvəsindən görünmür. Vətən eşqilə yaşayan hər insan o uca, dərdli dağlarımızı, o ocağı sönmüş, qaralan məkanlarımızı həm də ruhunun bir parçası kimi yaşadır.

Qarabağ ağrısı - yaddaşımızın daim qanayan səhifəsi. Bəlkə də qəzetin təsisçisi, baş redaktoru olduğu Əli Mahmud bu Vətən salnaməsinə ad verməyə çalışanda, yaddaşından axan qan düşüncələrini də qırmızıya boyayıb. Deyib, qoy elə bu ad "Qarabağa aparan yol" olsun. Qanımız axa-axa gəlmişik. Qanımızı, canımızı verə-verə də bu yolu geri qayıtmalıyıq.

*Ağdam, Çay evi*



Qarabağa, Vətənə sarı düzdüyümüz daşlar. Vətənə sarı uzanan yollardakı daş kimi soyuq, dəmir kimi bərk maneələri sıxıb sözə çevirmək əzmimiz. Bu sözləri bir də ruhumuzun köynəyindən keçirib tarix daşları kimi yollara düzməsək, izimiz itər, səfimiz bir də pozular... "Qarabağa aparan yol"un ayrıca irihəcmli kitablar şəklində buraxılmış nüsxələri dövlət kitabxanalarına, orta və ali məktəblərə də verilib.Bu kitablarda Qarabağ, bütövlükdə, məmləkətimizin eramızdan əvvəlki çağlardan üzübəri, bugünədək tarixdəki yerinin və rolunun tərəfimizdən bir daha əbədiləşdirilməsi, yazılı qaynaqlara çevrilməsi bir re-



daksiya olaraq getdiyimiz yolun mənəvi xəritəsi, yaddaş yeridir.Bu yaddaşı səhifələyən hər kəs Azərbaycan mənəviyyatından, onun mənəvi həyatından kimlərin, hansı fədakar imzaların keçdiyini də görəcək... Biz qədərimiz,qədrimiz üçün çalışdıq, Vətən mehini, babaların şumlayıb, əkin əkdiyi, yurd saldığı torpaqların ətrini hər növ dünya malından uca tutduq... Bunu torpağın üstü bilməsə də, altı biləcək...

**Fariz ÇOBANOĞLU**

# Lalələrin gül açan vaxtı...



**“Qarabağa aparan yol” qəzetini nəşrə başladığı ilk aylardan, illərdən tanıyıram. Bir neçə gün əvvəl də 399-cu sayında baş redaktoru olduğum “Söz” jurnalı haqqında da “İyirmi beş ilin sözü” adlı xırda bir yazı dərc edimişdi. Qəzetin həmin sayını maraqla oxudum. Düzü, könlümdən keçdi ki, 400-cü saya mən də öz ürək sözlərimi göndərim. Elə bu istəklə də əlimə qələm götürdüm.**

“Qarabağa aparan yol” hər birimizin ümid, inam, arzu, istək yoludur.

“Qarabağa aparan yol”a o günü arzulayıram ki, öz zəfər, sevinc, şadlıq nömrəsini çap etsin və bu qəzetdə dərdini yazan hər bir əməkdaş, yazar dərdimiz Qarabağdan yox, sevincimiz Qarabağdan yazsın. Məncə, bizim sevincimizdən, uğur və qələbəmizdən yazmaq vaxtımıza da çox qalmayıb.

“Qarabağa aparan yol”u ərsəyə gətirən, bu yolda inamla irəliləyən baş redaktor şair Əli Mahmud, Fariz Çobanoğlu və qəzetin digər əməkdaşlarının zəhmətinin yerdə qalmayacağına inanıram. İtirdiyimiz yurd-yuvalarımıza qovuşmaqda “Qarabağa aparan yol” bir körpüdür və onun bu zəhməti hər birimiz tərəfindən 5 yaşında da, 10, 15 yaşında da təqdirəlayiq hesab olunub, dəstəklənib.

“Qarabağa aparan yol” artıq 15 ildir ki, öz sözünü deməkdədir. Qəzetin səhifələrindən biz hər dəfə həqiqət pəncərəsinə boylanırmış kimi baxırıq. Xüsusilə gənclər - onlar bu qəzetin səhifələrindən heç tanımadıqları, görmədikləri yurdu gəzib-dolaşır, dədəbaba məskənlərini tinbətin, küçəbəküçə tanıyır, yaddaşlarına həkk edirlər. Qarabağın unudulmamasında, hər gün daha böyük riqqət və diqqətlə xatirlanmasında “Qarabağa aparan yol”un misilsiz xidməti hər birimizə bəllidir. Çünki bizim də sözümüz zaman-zaman bu yoldan keçib-gedir. Biz də sözümüzü, səsimizi yeri gələndə, bu qəzet vasitəsilə oxucularımıza çatdıra bilirik. Çünki “Qarabağa aparan yol”un qapısı biz yazarlara, redaktorlara, tarixçilərə, müəllimlərə, ən sadə vətəndaşlara, qaçqın və məcburi köçkünlərə hər zaman açıq olub. Bunu mən demirəm, qəzetin arxasında gözümə sataşan bir neçə sətir deyir. Deyir, “Qəzet qaçqın və məcburi köçüknülərin təbrik və elanlarını təmənnansız çap edir”. Mən hələ ən xırda məsələni deyirəm, bunu edən qəzetin dəstəyi, demək, bütün məsələlərdə öz oxucusununqaçqın və məcburi köçkünün yanındadır.

Sevindirici haldır ki, qəzet nəşrə başladığı ilk gündən etibarən öz mövqeyini dəyişmədən irəliləyir.

“Qarabağa aparan yol” döyüşən qüvvələrimizdən biridir. Onun bu 15 ildə döyüş meydanını tərk etməməsi hər bir qeyrətli vətəndaşımızın qürur qaynağı ola bilər. Məsələyə bu cür yanaşnada, qəzetin 400-cü sayı münasibətilə onun kollektivini də təbrik etmək olar.

Bir də onu söyləmək istəyirəm ki, elə mən özüm də qarabağlışuşalıyam. Baxmayaraq ki, Lənkəranda doğulmuşam. Babam məşhur Mehmandarovlarla qohum olub. Onların dəvəti ilə də Lənkərana köçüb. Axırıncı dəfə Qarabağda olduğum günləri xatırlayıram. 1988-ci il idi. Füzuli rayonundakı qohumlarımızgilə getmişdik. Lalələrin açan vaxtı idi. Qarabağın düzlərinin qırmızı, al örpəyə büründüyü o məsum gözəlliyini heç unuda bilmirəm.

Nə deyim, çox istəyirəm o yerlərə, o yurdlara dönəm, qayıdam, daha doğrusu, çox istəyirəm ki, ömür buna vəfa etsin... Budəfəki görüşümüz üzü Qarabağadırsa, gələndəfəki görüşümüz Qarabağın özündə - Kəlbəcər, Şuşa, Laçında... olsun.

**Sevda ƏLİBƏYLİ,**
**“Söz” jurnalının baş redaktoru**

# Mədəni irsimizin UNESCO-da növbəti təntənəsi

***Minilliklərin yaşıdı olan “Yallı” rəqsi və “Dədə Qorqud” dastanı ilə bağlı nominasiyalar bəşəriyyətin xəzinəsinə daxil edilib***

**Mavriki Respublikasının (Şərqi Afrikada, Hind okeanında kiçik ada-dövlət) paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyası keçirilir.**

Noyabrın 26-dan dekabrın 1-dək davam edəcək sessiyada Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Ramiz Həsənovun başçılığı ilə nümayəndə heyəti iştirak edir. Heyətə ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Anar Kərimov, xüsusi tapşırıqlar üzrə səfir - UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini - Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə və UNESCO üzrə Milli Komissiyanın ikinci katibi Nahid Ömərov daxildir.

Sessiyanın gündəliyinə Hökumətlərarası Komitənin cari və gələcək fəaliyyəti ilə bağlı məsələlər, UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə reprezentativ siyahısına və Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına salınması nəzərdə tutulan nominasiyaların müzakirəsi, milli hesabatların qəbul edilməsi və digər məsələlər daxildir.

Sessiyanın açılışında çıxış edən R.Həsənov cari ilin iyun ayında Azərbaycanın sözügedən komitənin üzvü seçildiyini qeyd edərək seçkilər zamanı ölkəmizə dəstək verən üzv ölkələrə təşəkkürünü bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycan 2008-2014-cü illərdə sözügedən komitənin üzvü olub və 2013-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına müvəffəqiyyətlə ev sahibliyi edib. Nazir müavini universal mədəni dəyərlərin qorunmasına daim səy göstərən Azərbaycanın qeyri-maddi mədəni irslə bağlı 2003-cü il konvensiyasının səmərəli həyata keçirilməsində maraqlı olduğunu və 2018-2022-ci il Komitə üzvlüyü dövründə də konvensiyanın səmərəli həyata keçirilməsi üçün üzv ölkələrlə konstruktiv əməkdaşlıq edəcəyini vurğulayıb.

Sessiyanın üçüncü iş günü ölkəmiz üçün xüsusilə əlamətdar olub, zəngin mədəni irsimizlə bağlı daha iki nümunə UNESCO-nun müvafiq siyahılarına salınıb.

Noyabrın 28-də günün birinci yarısında ölkəmizin təqdim etdiyi “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiya faylı UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Bu xoş hadisə ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatı yayılıb. Bəyanatda bildirilir ki, sözügedən nominasiya sənədi Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin birgə əməkdaşlığı ilə təqdim edilib. Namizədlik sənədinin məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin qədim və tarixi regionu olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və onu tanıtmaq, eyni zamanda bu ənənələri UNESCO səviyyəsində qorumaqdır.

Bəyanatda qeyd olunur ki, Ermənistanın, ölkəmizin digər mədəni irs namizədləri ilə bağlı olduğu kimi, “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin də qarşısı alınıb, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan öncə müvafiq iş aparılıb və ölkəmizin nümayəndə heyəti tərəfindən sessiya zamanı Ermənistan tərəfinə layiqli cavab verilib.

Günün ikinci yarısında isə Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” nominasiya faylının çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınması barədə qərar qəbul edilib.

Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin bu barədə birgə bəyanatında diqqətə çatdırılır ki, “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” adlı çoxmillətli mədəniyyət nümunəsi Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, həmçinin xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir.

Bildirilir ki, Ermənistan nümayəndəsinin bu dəfə də “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” adlı çoxmillətli mədəniyyət nümunəsinin Azərbaycana dair hissəsinə qarşı əsassız çıxış etməsi heç bir nəticə verməyib. Ermənistan tərəfinin qeyri-konstruktiv və yersiz mövqeyinin yolverilməz olduğunu bir daha diqqətə çatdıran nümayəndə heyətimiz Azərbaycanın bu çoxmillətli nominasiyanın tərəfi olmaqla regional əməkdaşlığa və ortaq mirasa sahib olan ölkələrlə mədəniyyətin bölüşülməsi faktoruna önəm verdiyini və bununla da UNESCO-nun xoşməramlı prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini vurğulayıb.

Mədəniyyət və Xarici İşlər nazirliklərinin hər iki bəyanatında həmçinin xüsusi qeyd olunur ki, UNESCO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə sözügedən iki nominasiya faylı ilə yanaşı, ötən illərdə qeyri-maddi mədəni irsimizin nümunələri - kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına, çövkən - ənənəvi Qarabağ atüstü oyunu isə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Beləliklə, hazırda UNESCO-nun sözügedən iki siyahısında Azərbaycan xalqının zəngin mədəni irsi ilə bağlı ümumilikdə 13 nümunə yer alıb.

***

Hökumətlərarası Komitənin 13-cü sessiyasında həmçinin 2013-cü ildə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycanın “Çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri”nə dair beşillik hesabat qəbul edilib.

Hesabatda çövkən atüstü oyun ənənələrinin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər, həmçinin Ermənistan tərəfindən Azərbaycanın Qarabağ regionunun işğalı nəticəsində bu oyun ənənələrinin həyata keçirilməsinin mümkünsüzlüyü əksini tapıb, Qarabağdan - tarixi yurdundan zorla qovulmuş azərbaycanlı əhalinin, müharibənin və təcavüzün acı nəticələrinə baxmayaraq, çövkən oyununu yaşatmağa çalışdıqları və bu istiqamətdə dövlətin icmaları dəstəklədiyi göstərilib.

İclasda Ermənistan nümayəndə heyəti “ənənə”sinə sadiq qalaraq Azərbaycana qarşı çıxış edərək hesabatın geri qaytarılmasını tələb edib. Məsələ ilə bağlı geniş müzakirə aparılıb və Ermənistanın bu cəhdi də iflasa uğrayıb. Ermənistanın qərarla bağlı təkliflərinin heç biri komitə tərəfindən dəstəklənməyib.

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Anar Kərimov qeyd edib ki, hesabat beynəlxalq hüququn, BMT Nizamnaməsinin və UNESCO-nun müvafiq konvensiyasına uyğun olaraq Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən hazırlanıb və sənəddə ölkəmizdə çövkən oyununu həyata keçirən bütün icmaların fikirləri və müsahibələri əksini tapıb. Səfir komitə üzvlərinin konstruktiv mövqelərinə görə təşəkkürünü bildirərək Ermənistan nümayəndəsini komitə üzvlüyündən öz siyasi məqsədləri üçün istifadə etməməyə çağırıb.



***

Qeyd edək ki, sessiyada baxılmaq üçün UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına 7 fayl, Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına 40 fayl, yaxşı mühafizə praktikası üzrə 2 fayl təqdim edilib.

Noyabrın 28-də Təcili qorunmaya ehtiyacı olan irs siyahısı üzrə nominasiyaların hamısı qəbul edilib. Onların arasında Suriyanın təqdim etdiyi kölgə kukla oyunu, Misirin təqdim etdiyi qədim marionet teatr ənənəsi və başqa nümunələr var.

Həmçinin gün ərzində qeyri-maddi mədəni irs üzrə 10 nominasiya faylı qəbul edilib, qalanlarının müzakirəsi davam etdiriləcək.

Sessiyada Koreya Xalq Demokratik Respublikası və Koreya Respublikasının birgə təqdim etdiyi “Ənənəvi Koreya güləşi” faylının UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi xüsusilə diqqət çəkib. UNESCO-nun baş direktoru Odri Azuley bəyan edib ki, iki Koreyanın belə bir təşəbbüsdə razılığa gəlməsi misli görünməmiş haldır. Bu birgə imza iki ölkə arasında barışıq yolunda çox simvolik addımdır.

# Vətən, millət məfhumları ilə yan-yana qoyulan milli dilimiz...

## *Professor Minəxanım Nuriyeva: Təkcə universitetlərdə deyil, orta məktəblərdə də mədəni nitq mühiti yaradılmalıdır...*

**– Bildiyiniz kimi, Azərbaycan respublikasının prezidenti cənab İlham Əliyev noyabrın 2-də Azərbaycan dilinin inkişafı və dil normalarından düzgün istifadə qaydaları haqqında mühüm Sərəncam imzalayıb. Professor, siz dil tariximiz, türkologiyanın ən müxtəlif sahələrindən bəhs edən araşdırmalarınız, tədqiqatlarınızla daim diqqət çəkirsiniz. Bu sahədə çoxlu kitab və elmi məqaləniz çap olunub. Hazırda ali məktəblərdə "Azərbaycan dili və nitq mədəniyyətindən bəhs edən dərslər keçirsiniz. Ana dilimizin saflığının, təmizliyinin qorunmasında, onun imkanlarının müəyyənləşdirilməsində xüsusi xidmətləriniz var. Türkoloq alimimiz professor Minəxanım Nuriyevaya bu mövzuda öncə nədən bəhs etmək istəyər? Hər halda, sualımız belədir: Azərbaycan dili bu gün yetərincə qorunurmu? Bu gün şəhərdəki reklam lövhələri, müəssisə və alış-veriş mərkəzlərinin adları sizi qane edirmi?**

- Mən elə sizin də qeyd etdiyiniz kimi, birbaşa prezidentin dillə bağlı Sərəncamından başlamaq istəyirəm. Azərbaycanımız öz dövlət müstəqilliyinə qovuşduğu ilk çağlardan başlayaraq dilimizin inkişafına, onun tətbiq dairəsinin genişlənməsinə xüsusi diqqət və qayğı göstərilməkdədir; böyük öndərimiz Heydər Əliyevin imza atdığı fərmanlar ana dilimizin öyrənilməsi, bu sahədə aparılan araşdırmaların fəallaşdırılmasını və cəmiyyətdəki istifadə imkanlarını daha da artırmaqdadır. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001-ci il fərmanı; "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il fərmanı; "Azərbaycan Respublikasının Dövlət dili haqqında" 30 sentyabr 2002-ci il Qanunu; Azərbaycan Respublikasının Dövlət dili haqqında Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2 yanvar 2003-cü il fərmanı və s. dövlət tədbirləri dövlətin daimi qayğısını əks etdirir.

"Azərbaycan Respublikasının Dövlət dili haqqında" 30 sentyabr 2002-ci il Qanun maddələrindən də aydın olur ki, müstəqilliyin başlıca əlaməti ana dilinin dövlət dili statusuna nail olmasında, dövlət dilinin qorunması və işləkliyinin təmin edilməsindədir. Bu, müstəqil dövlət quruculuğumuzun ən bariz şərtidir.

Lakin onu da ürək ağrısı ilə qeyd edək ki, hər kəsin hər an diqqət mərkəzində saxladığı, nəzər yetirdiyi, deyərdim ki, üzərində ciddi məsuliyyət hiss etdiyi dil-ana dilimiz, Vətən, millət məfhumları ilə yan-yana qoyulan milli dilimiz təəssüf ki, müəyyən mənada müdafiəsiz qalmaqdadır. Onu nə qədər bərk-bərk qoruyub saxladığımızı düşünsək də, ilk baxışdan görünməyən, o nəzərə çarpmayan müdaxilələr, hətta laqeyd, biganə əllər ona doğru uzanmaqdadır... nəticə isə ağırdır.

Bir çox mənada Azərbaycan dilinin bugünkü vəziyyəti xüsusi narahatlıq doğurduğundan, əlbəttə, ilk növbədə dilçi alimləri olmaqla, hamını - yazıçıları, jurnalistləri, filoloji yöndə araşdırmaçıları, cəmiyyətin bütün ziyalı təbəqəsini - həkimləri, sənət adamlarını və s. düşündürməli, məşğul etməlidir. Kafelər, restoranlar: **Hard Rock, Royal Garden, Razzmatazz, Traveler's, Zest Lifestyle, Sugar Lounge, Five, Mambo, Neolit, Izabella, Qraf Monte-Kristo... Otel, qonaq evləri adları: Riviera, Premier Expo, Montenegro, Boulevard, Boutique, Fairmont Baku, Holiday Inn Baku, Passaj Butik otel, Austin Butik otel, Vinter Park otel, Boulevard Side otel. Sapphire otel, Nord Vest, Otel Nemi, Bristol otel...**

Bəli, bəli siz heç də uzaqlarda deyilsiniz... siz Bakıdasınız.

Əyri söz axsayar, hədəfə dəyməz... Söz bağlı qapıların açarıdır, deyib babalar. Bu gün reklamların xarici dillərdə yazılması, eləcə də müəssisə - təşkilat adlarının Azərbaycan dilində yanlış yazılışı halları çoxalmışdır. Halbuki reklamları milli dildə hazırlamaq nəinki mümkün işdir, hətta deyərdim ki, məcburi olmalı. Hamıya məlumdur ki, Azərbaycan dilinin dövlət statusunun mahiyyəti bir də onda açıqlanır ki, ölkədə bütün xidmət sahələrində - reklam, elan və müəsisə-təşkilat adları Azərbaycan dilində aparılsın. Amma nöqsanların varlığı göstərir ki, Ana Yasamızın 21-ci maddəsində təsbit olunan Ana dilimizin dövlət status tələbləri bununla açıqdan açığa pozulur.

Dilimizin durmadan daim inkişaf etdirilməsi üçün geniş imkanlar yarandığı hazırkı şəraitdə bu dildən istifadə edən hər bir kəsin, bütövlükdə cəmiyyətin borcu - onun qaydalarına, normalarına riayət etmək, onun təmizliyini, saflığını, gözəlliyini qorumaq, korlanmasına, pozğuntulara düçar olmasına əsla yol verməməkdir.

**- Professor, dediyiniz kimi, dilin qorunması elə bir prosesdir ki, orda cəmiyyətin hər bir üzvü məsuliyyət daşıyır. Amma ilk addım, bu qoruma, bu müdafiə işi hardan başlanmalıdır?**




- Xalqın varlığı və milliliyinin ilkin şərtləri onun dili ilə bağlıdır; Başqa şəkildə ifadə etsək, hər bir millətin kimliyi, ədəbiyyatı, mədəniyyəti onun dilindən başlayır.

Belə olan halda demək, mirasımız milli dilimizdir. Bəs "Milli dil" dedikdə nə düşünülür? Əlbəttə, əksəriyyət bu, anlayışı adətən yad, əcnəbi dillərin basqısına qarşı duran dil, yəni ana dili kimi qəbul edir. Əlbəttə, bu bir çox hallarda belədir ki, var. Axı dil hər bir millətin gecə və gündüz daim yanan qəndilləridir... Bunu dahilərdən kim isə demişdi. Özümüzdən başlamaq lazımdır. Əslində dilimizin sağlam kökləri var; xalq ədəbiyyatı nümunələrində, xalq ağızlarında, bir çox hallarda hətta tarixi dil materiallarında mühafizə olunan qədim türk sözlərimiz... Bugün polk sözünü "alay"; praporşik sözünü "gizir", kazarma sözünü "qışla", vzvod sözünü "tağım" ilə əvəz edə bilmişiksə, ibrət yerinə "görk", günah yerinə "suç", plyaj yerinə "çimərlik" deməyə niyyətliyiksə, o zaman barmaqlıq yerinə reşotka; nahar yerinə obed, başmaq- damaşnik, növbə yerinə smen, çanta-sumka, odyal, pilətə (əsli: plita), oprava(sağanaq, çərçivə), ruçka, rul (sükan), aqat (əqiq), brilyant (almas), konstitusiya (ana yasa)... işlədilməsi halları get- gedə davamlı xarakter alır və şifahi nitqdə get-gedə artaraq özünü göstərən ciddi nitq qüsurlarını ortaya qoymaqdadır: pılesos, sup (şorba), xolodilnik, lüstr, zabor, pesok (toz şəkər), qarşok (dibçək; manqal), medsestra, ostanovka, zamok, patalok, pol, peç, prostın, naruşeniya, kinişka, klok, setka, paket (torba); kruq, novostoyka, yantar (kəhrəba) pesok -şəkər tozu, paroşok - toz, pəhriz-diet və yenə misal çəkə biləcəyimiz nümunələr göstərir ki, dilin gözəl bir sözünü unutmaqla, onu görməzlikdən gəlməklə onu lal hala salmış oluruq... Son illər ədəbi dilimizin taybatay açılmış "darvazası"ndan dilimizə əcnəbi sözlər sel kimi axışmaqdadır. Lakin diqqətlə baxsaq, görərik ki, bir çox terminlərin Azərbaycancası vardır, lakin onlar aktiv surətdə işlənmirlər: məs., seqmantasiya "üzvlənmə"; seqmentləşdirmə "müəyyənləşmə"; diskurs "nitqin xarakteristikası" Bu hallar fikir və müddəalar arasında əlaqələndirməni zəiflədir və s.

Belə təəssüfləndirici nəticələr onu deməyə imkan verir ki, dilimizin qorunub-mühafizə edilməsində ali məktəblərin, xüsusilə bu dili yetişməkdə olan nəslə bilavasitə aşılamalı olan pedaqoji yönlü qurumların üzərinə böyük vəzifələr düşür. Ana dilinin insanın yetişməsi və inkişafındakı mövqeyi, habelə ailədə ana dilinin uşağın yetişməsindəki rolunu, obrazlı olaraq onların hər birinin bir kökün üstündə rişə atan budaqlar kimi bağlılığı olaraq qəbul etmək gərəkir.

**- Ədəbi normalara riayət, yoxsa dilin işlənmə coğrafiyasını genişləndirmək, hansı daha vacib şərtdir? Dilin qaydaları daha çox harda pozulur?**

- Gəlin səmimi olaq... Qaydalara riayət mətbuatdan gözlənildiyi kimi, pozulması da ən çox mətbuatdan gəlir.

Məsələn, müqayisə edək: PKK-nın türk ordusu, türk polisi, türk insanı ilə mübarizədə kütləvi şəkildə qadın qiyafəsinə üz tutması əslində, sözügedən terror təşkilatının əsl simasından, onun uğur qazanmaq üçün ən şərəfsiz üsul və vasitələrdən belə istifadə etdiyindən xəbər verir.

Amma belə olmalı idi:

Türk ordusu, türk polisi, türk insanı ilə mübarizədə PKK-nın kütləvi şəkildə qadın qiyafəsinə üz tutması əslində, sözügedən terror təşkilatının əsl simasından, onun uğur qazanmaq üçün ən şərəfsiz üsul və vasitələrdən belə istifadə etdiyindən xəbər verir.

Lüzumsuz təkrarlar:

Çünki xəyanət olan yerdə cəzanın olması mütləqdir. Çünki ləyaqətsiz üsullarla ləyaqətli həyata sahiblənmək mümkünsüzdür. Çünki tale də, Tanrı da hər zaman yalnız cəsurlardan yanadır. Hansı ki bu ifadənin əslində nə demək olduğu qadın qiyafəlilər üçün sonsuza qədər (həmişə) sirr olaraq qalacaqdır. (Bir şey başa düşən oldumu?)

Mətbuatda dilin orfoqrafiyasının leksik normalarının pozulması halları çoxalmaqdadır: Xüsusən varvarizmlərin nitqə daxil edilməsi: namyok eləmək, nemes, kitayski, maladies, nastrayeniya, nervlənmək, prosto, davay, karoçe, vobşe, pçenni... Adam adları (Tolik, Gülya, Toma, Sonya, Fatoş, İbiş, Alik); Dünən bura iki dənə qız gəlmişdi; Bir dənə olar sizi?; Qardaşım metro sürür; Mənə bir az söz versələr danışaram. Vesyolu adamdır. Sumkanı sol qoluna keçirdi. Gözündə gün açkisi vardı; Mamam sənə nə dedi? Priçoskası pozuldu; Jirni kliyentlər üçündür; Muzıkantlar razı deyil; snikerslə, meyvələ, lomkadadır, əndər getsin, okeymi? Qırıldatmaq, oxumaq, guppuldatmaq(danışmaq); əndər getsin, bir dənə saxla; bura bax...

**- Bir çox hallarda şivələrimiz də dilin normal inkişafını əngəlləyir...**

- Bəli, doğru deyirsiniz, şivələrin yerli-yersiz istifadəsini də qeyd edə bilərik: Adıvızı diyərdüz; İstəməklə döyül, iş gərək; Nöşün bilmirsən? Bizə gələcəy, yiyecey, içecey, necəsüz, naxarta, nə formu? Ceyil, məmə(nənə)...

Nitqin etikasının pozulması kimi dilə biganəlik halları ayrı mövzudur. Xüsusən günümüzdə müraciətlərin dözülməz vəziyyəti: qaqa, əyə, əg, xala, bibi, day-day, əşigvə s. Lakin unutmayaq ki, dilimizdə müraciət etikasının güclü ənənəsi mövcud olub. Təkcə keçmiş məktublara, oradakı müraciətlərə nəzər salmaq kifayətdir.

Belə misalların sayını istənilən qədər artırmaq olar.

Bir də gənclərin danışığında... Nitq inkişafı gənclərin şəxsiyyətinin, dünyagörüşünün formalaşması və təfəkkürünün inkişafı ilə bağlıdır. Mən ali məktəbdə "Nitq mədəniyyəti" fənnini tədris edirəm. Dərslərimiz ən çox təcrübi məşğələlər üzərində qurulur. Acı həqiqət ondan ibarətdir ki, insan, gənclik geyim-geçiminə, görünüşünə nə qədər diqqətlidirsə, tam əksinə olaraq danışığına, nitqinə bir o qədər diqqətsizdir.

İnsanın mədəni yetkinliyinin meyarlarında biri - bəlkə də ən mühümü onun nitq mədəniyyətinə yiyələnməsidir. Gələcəyin ziyalısı olacaq tələbənin yüksək nitq mədəniyyətinə yiyələnməsi vacibdir, bu günün tələbidir. Bu məqsədlə ixtisasından asılı olmayaraq bütün fakültələrdə nitq mədəniyyəti bir fənn kimi tədris olunmalıdır. Bu fənnin tədrisində tələbələr mədəni nitqin bir çox məsələləri - Azərbaycanda nitq mədəniyyətinin tarixi, düzgün nitqə verilən başlıca tələblər, nitqin normaları və formaları, növləri, yazılı nitq mədəniyyəti, əməli yazılar, nitqin etik qaydaları, etiketləri, nitqə hazırlıq və s. barədə biliklərə yiyələnməklə, öz nitq təcrübələrini təkmilləşdirməlidir. Əlbəttə, qoy həm tarixçi, həm riyaziyyatçı, həm də kimyaçı... öz ixtisasına tam sahib olmaqla bərabər, öz ana dilində mükəmməl nitq qabiliyyətinə də malik olsun.

Məhz bu "yeni nəsildə", xüsusən gənclərimizdə elə vərdişləri əldə etməliyik ki, o çoxsaylı kütlə qarşısında da, müxtəlif xarakterli müzakirələrdə, elmi-praktik toplantılarda, radio-televiziya verilişlərində öz fikrini dəqiq, aydın, kəskin inandırıcı bir tərzdə ifadə edə bilsin. Bu işə ilk siniflərdən başlanılmalı, ciddi bir tələbkarlıqla onlara nitq mədəniyyətinin və natiqlik sənətinin sirlərini öyrətmək lazımdır. Lakin bu prosesi qətiyyən əzbərçiliklə bir tutmaq olmaz; burada tərif və qaydaların mexaniki əzbəri deyil, praktiki vərdişin yaradılması gözlənilməlidir. Etiraf etmək gərəkdir ki, bu tələblərin yerinə yetirilməsi əsaslı psixoloji hazırlıqlar tələb edir.

Demək, bu mənada artıq universitetlərdə deyil, orta məktəblərdə belə, mədəni nitq mühiti yaradılmalıdır...

**Fariz ÇOBANOĞLU**

GİMNASTİKA

# Panamerika Gimnastika İttifaqının prezidenti: Azərbaycanın çox güclü Gimnastika Federasiyası var



**Azərbaycan Gimnastika Federasiyası çox güclüdür və güclü iqtisadi və texniki bazaya malikdir.**

Bu fikri Bakıda keçirilən Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Konqresi çərçivəsində Panamerika Gimnastika İttifaqının prezidenti və FIG İcraiyyə Komitəsinin üzvü Naomi Valenzo deyib.

O, Federasiyanın işinin yüksək qiymətləndirildiyini deyib:

"Heç də bütün federasiyalar bu cür tədbir keçirməyi öhdəsinə götürə bilməz".

O həmçinin qeyd edib ki, Konqres çox yaxşı keçir, vacib məsələlər müzakirə olunur.

N.Valenzonun sözlərinə görə, vacib qərarlardan biri parkurun gimnastika növləri siyahısına daxil edilməsidir.

O, Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbovun işini yüksək qiymətləndirib və ona gimnastikanın inkişafı üzrə işinə və bu Konqresin Bakıda keçirilməsinə görə minnətdarlığını bildirib.

# UEG baş direktoru: Azərbaycan hər zaman tədbirləri yüksək səviyyədə keçirir



**Azərbaycan hər zaman tədbirləri yüksək səviyyədə keçirir və biz gələcəkdə tədbirləri necə keçirməyin lazım olduğunu öyrənə bilərik.**

Bunu Bakıda keçirilən Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Konqresi çərçivəsində Avropa Gimnastika İttifaqının (UEG) baş direktoru Liza Vortman deyib.

O xatırladıb ki, gələn il Bakıda iki Avropa çempionatı (aerobika gimnastikası və bədii gimnastika) keçiriləcək:

"Bundan başqa, UEG-in iki görüşünün keçirilməsi də planlaşdırılır. Bu görüşlər çərçivəsində gələcək planlar müzakirə olunacaq".

O, həmçinin UEG prezidenti Fərid Qayıbovun işini yüksək qiymətləndirib:

"Bu, onun birinci ilidir. Onunla və İcraiyyə Komitəsinin digər üzvləri ilə birgə gələcək planları müzakirə edirik. Bizim çoxlu ideyamız var. Onlardan bəzilərini reallaşdırmışıq, qalanları isə ümid edirəm ki, yaxın gələcəkdə reallaşdırılacaq".

# Bakıda parkur gimnastika növü üzrə təqdimat xarakterli kurslar keçirilib



**Bir neçə gün öncə FIG-nin Konqresində (2-3 dekabr) qəbul edilən qərara əsasən, Parkur rəsmi olaraq gimnastika proqramına daxil edilib. Elə bu fürsətdən yararlanaraq, paytaxtımızda bu idman növü ilə yaxından tanış olmaq üçün təqdimat xarakterli kurslar təşkil olunub və kurslarda 12 ölkənin, eləcə də Azərbaycan nümayəndələri iştirak ediblər.**

Seminarın təqdimatçısı isə bu idman növünün yaradıcılarından sayılan, "Yamakasi" filimində rol almış Şarl Perye olub. Təmsil etdiyi idman növünün FIG-nin proqramına daxil edilməsi sevincini yerli jurnalistlərimizlə bölüşən Perye öz müsahibəsində bu idman növünün gələcək inkişafından danışıb: "Parkurun rəsmi olaraq FIG-yə daxil edilməsi onun inkişafına müsbət təsir göstərəcək. Biz bütün dünyaya göstərmək istəyirik ki, parkur necə maraqlı idman növüdür. Əlbəttə, qarşıda görməli olduğumuz çox işlər var. Ən əsası bu növ üzrə yarışların sayının artırılmasıdır. Artıq parkur böyük idmanın bir hissəsinə, Bakı isə bizim üçün əsl sürpriz şəhərə çevrildi".

Qeyd edək ki, sözügedən kurslar nəzəriyyə və təcrübi hissələrdən ibarət olub və iki gün davam edib.

# "Qızıl Yaş" adlı gimnastika şousu baş tutdu

**Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 25-ci Azərbaycan Birinciliyi və 5-ci Bölgələrarası Kubok öz işinə yekun vurdu. 4 gün davam edən turnirdə 300-ə yaxın gimnast xalça üzərində öz bacarıqlarını nümayiş etdirdilər. Bəzən həyəcanlı, bəzən də özünə inamlı çıxışları ilə hakimlərin rəğbətini qazanan iştirakçılar, öz proqramlarının öhdəsindən layiqincə gəlməyə çalışdılar. Ölkə birincisi adı uğrunda gedən mübarizənin sonunda qaliblər müəyyənləşərək, fəxri kürsüdə öz yerlərini aldılar.**



Yarışın son günü isə xalçada əsl gimnastika bayramı yaşandı. Hər kəsin səbirsizliklə gözlədiyi "Qızıl Yaş" adlı şou bütün möhtəşəmliyi ilə tamaşaçıların yaddaşında iz buraxa bildi. Artıq bir neçə gün idi ki, milli komandanın və bir sıra gimnastika klublarının məşqçiləri məsuliyyətli çıxışa hazırlaşmışdılar. Gimnast karyeralarını illər öncə bitirmələrinə baxmayaraq, onlar bu dəfə izləyicilərin qarşısında öz kompozisiyalarını ardıcıl olaraq təqdim etdilər.

Günün ən həyəcanla gözlənilən məqamı isə milli komandanın Baş məşqçisi Mariana Vasilevanın çıxışı oldu. Xalça üzərində öz kompozisiyasını ecazkar şəkildə icra edən Baş məşqçi öz enerjisi və çevikliyi ilə sanki illərə meydan oxudu. Tamaşaçılar isə bütün çıxışları öz alqışları ilə dəstəkləyərək, zalda böyük ruh yüksəkliyi yaratdılar.

Bir-birindən maraqlı kompozisiyalar icra edən və meydançada qüsursuz olmağa çalışan şounun iştirakçıları sözün əsl mənasında peşəkarlıqlarını və gimnastikaya olan sonsuz sevgilərini bir daha sübut etdilər. Yeni nəsil gimnastlara stimul vermək məqsədilə hazırlanan kompozisiyalara bu idman növünün bütün incəliklərini sığdırmağa çalışan məşqçilər bu məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəldilər.

Bir daha yarışlarda qalib gəlmiş bütün gimnastları təbrik edir, "Qızıl şou"nun iştirakçılarına isə hər zaman belə sağlam və gümrah qalmağı arzu edirik!

*Təsisçi və baş redaktor:*
**Əli MAHMUD**
*Baş redaktor müavini:*
**Fariz ÇOBANOĞLU**

Redaksiyasının bank rekvizitləri:
h/h: AZ73AMRA00400609440910768701
VÖEN 8600020231
Amrahbank ASC Yasamal filialı
Kodu: 508609 VÖEN: 1400064171
Müxbir hesabı: AZ89NABZ01350100000000028944
SWIFT BİK: AMRAAZ22

Qeydiyyat № 0105-P184-44628

Ünvan: AZ 1073, Bakı 73. Mətbuat prospekti, 529-cu məhəllə, VI mərtəbə.
Tel/faks: 510-18-60, dax. 6-01
*E-mail: q_aparan_yol@mail.ru*

Redaksiya dövlətçiliyimizə, milli birliyimizə, ordumuza, iqtisadiyyatımıza, dilimizə, dinimizə, ərazi bütövlüyümüzə və mənəvi-əxlaqi dəyərlərimizə xələl gətirən yazıları qəbul etmir.
*Əlyazmalara cavab verilmir, geri qaytarılmır.*

Qəzet "Qarabağa aparan yol"un kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ekspress-servis" mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Sifariş: Tiraj: 2500

Dizayner: Ramiz ƏLƏKBƏROĞLU

*Redaksiya reklam mətnlərinə görə məsuliyyət daşımır.*

Buraxılışa məsul: İdris HACIZADƏ

ELAN

Qarabağa aparan yol qəzeti qaçqın və məcburi köçkünlərin doğma yurd-yuvalarından erməni vəhşiləri tərəfindən qovulmasını, evsiz-eşiksiz qalmalarını, maddi imkanlarının aşağı olmasını nəzərə alaraq onların təbriklərini, elan və məlumatlarını pulsuz dərc edir.
*Əlaqə telefonu: (012)510-18-60*

**Etibarsız sayılır**

Bakı Slavyan Universiteti "Tərcüməçilik" fakültəsinin I kurs tələbəsi Hüseynli Nəhayət Mübariz qızının tələbə bileti və şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.